**Qısa ssenarilər – qəbuledilənlik**

1) Liva bələdiyyəsi 20 il davam edən inzibati icraatda tərəf idi. Bələdiyyə AHİK-in 6-cı maddəsinin pozulmasına görə şikayət təqdim edə bilərmi?
2) Fransa vətəndaşı Ben Qambiyaya ekstradisiya edilir və edam cəzasına məhkum edilir. O, hazırda orada ölüm növbəsi adlandırılan təcridxanada saxlanır. O, Avropa İnsan Hüquqları Məhkəməsi qarşısında şikayət qaldıra bilərmi? Hansı əsaslarla.
3) Con 2000-ci ildə başlayan və hazırda həllini gözləyən mülki məhkəmə icraatında tərəfdir. Daxili hüquqi müdafiə vasitələri mövcud olmadığı təqdirdə, o, AHİK-in 6-cı maddəsinin pozulduğuna dair şikayət təqdim edə bilərmi?
4) Kurt Venuziyanın hərbi qüvvələri tərəfindən saxlanılır. Heç kim onun izinə düşə bilmir və onun meyiti də tapılmır. Bu iş Avropa İnsan Hüquqları Məhkəməsinin diqqətinə çatdırıla bilərmi? Əgər çatdırıla bilərsə, kim tərəfindən?
5) Venuziyanın ədliyyə orqanları vegetativ vəziyyətdə olan şəxsin himayəçisinə süni maye və qida qəbulunu dayandırmaq üçün icazə verir. Bəzi insan həyatını müdafiə birlikləri bu qərarın AİHK-in 2-ci maddəsini pozduğunu düşünürlər. Onların şikayətinə Məhkəmə tərəfindən baxıla bilərmi?
6) Yerli mühakimə icraatında dövlət orqanlarının Cona hüquqi xərclər üçün € 100 ödəməsi haqqında qərar çıxarılır. Görülən bütün tədbirlərə baxmayaraq, ödəniş heç vaxt baş tutmur. Bu iş AİHM-in diqqətinə çatdırıla bilərmi?
7) Venuziyada homoseksual əlaqələr qanuna zidd elan olunub. Con homoseksualdır. O, homoseksual əlaqələrinə görə heç vaxt təqib edilməyib. O, zərərçəkən hesab edilə və Avropa İnsan Hüquqları Məhkəməsinə şikayət təqdim edə bilərmi?
8) Luka cinayət mühakimə icraatının ədalətsiz olduğunu düşünür. Vəkili vaxtında kassasiya şikayəti vermədiyindən onun hökmü yekun qərar olur. Bu səbəbdən onun apellyasiya şikayəti qəbuledilməz elan edilir. O, bu işi Avropa İnsan Hüquqları Məhkəməsinə çıxara bilərmi?
9) Yerli məhkəmələr Livianın prosesin müddəti ilə bağlı şikayətini təmin edərək əvəzin ədalətli ödənilməsi üçün məbləğ təyin edib; onun fikrincə bu kifayət deyildi. Avropa İnsan Hüquqları Məhkəməsindən onun şikayətinə baxmağı xahiş etmək olarmı?
10) Konstitusiya icraatında Aleksandrın arqumentlərinə cavab verilməyib. İş barədə qərar qəbul edilən zaman Konstitusiya Məhkəməsi belə arqumentləri nəzərə almayıb. O, AİHM-dən prosesin ədalətliliyi barədə qərar qəbul etməyi xahiş edə bilərmi?
11) Sənaye müəssisəsi Alfa hesab edir ki, Avropa Birliyi Direktivlərindən birini dəyişikliklər etməklə qəbul edən ölkə qanunvericiliyi AİHM tərəfindən təminat verilən hüquqları pozur. O, Avropa İnsan Hüquqları Məhkəməsi qarşısında şikayət qaldıra bilərmi?